1_Layout 1 13.02.2018 16:56 Page 1

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.

İlham ƏLİYEV

ƏSGƏR

№ 03 (519)

15 fevral

2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV:

2018-ci İL SÜRƏTLİ İNKİŞAF İLİ OLACAQ!

Fevralın 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) VI qurultayı keçirilib.

AZƏRTAC xəbər verir ki, YAP-ın 700 mindən çox üzvünü təmsil edən nümayəndələrin iştirak etdikləri qurultayda partiyanın sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söyləyib.

Azərbaycanı gələcəkdə daha da güclü dövlətə çevirmək üçün görüləcək işlərdən danışan partiyanın sədri, Prezident İlham Əliyev qeyd edib ki, son illər aparılan daxili siyasət özünü tam doğrultdu və Azərbaycanda sabitlik mövcuddur: "Qeyd etdiyim kimi, sabitlik hər bir inkişafın əsas şərtidir. Biz görürük ki, son 5-6 il ərzində dünyanın müxtəlif yerlərində, bizim regionumuzda çox ciddi, narahatedici proseslər gedir. Qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, ölkələrin bir-birinin işinə kobudcasına qarışması, hərbi müdaxilələr - bütün bunlar bizim gözümüzün önündə baş verən məsələlərdir. Biz görürük və bütün bəşəriyyət əyani şəkildə görür ki, sabitlik pozulduqda heç bir inkişafdan söhbət gedə bilməz. Bu, xalqlara, ölkələrə böyük bəlalar, faciələr gətirir. Bu gün dağılmış vəziyyətdə olan və daxili inteqrasiyanı tamamilə itirən ölkələrin gələcək taleyi böyük sual altındadır. Ona görə həyat və yaxın tarixin mənzərəsi göstərir ki, sabitlik əsas amildir və sabitlik necə təmin edilməlidir? Ancaq düzgün siyasətlə. O siyasət ki, onun mərkəzində xalq dayanır, ölkə vətəndaşı dayanır. Biz məhz bu siyasəti aparırıq. Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır. Xalq-iqtidar birliyi Azərbaycanda sabitliyi şərtləndirən əsas amildir, bu gün var və gündən-günə güclənir".

Dövlətimizin başçısı bildirib ki, ölkəmizdə ictimai asayiş qorunur, kriminogen durum çox müsbətdir, Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir: "Bunu Azərbaycan vətəndaşları yaxşı bilirlər, ölkəmizə gələn çoxsaylı turistlər görürlər. Təhlükəsizlik və sabitlik bizi fərqləndirən müsbət amillərdir".

Prezident İlham Əliyev diqqətə çatdırıb ki, xarici siyasətlə bağlı aparılan xətt də özünü tam doğrultdu: "Azərbaycan bu gün beynəlxalq birlik tərəfindən çox böyük rəğbətə layiq olan ölkə kimi tanınır. Bizim dostlarımızın sayı artır, bizi dəstəkləyən ölkələrin sayı artır. Təkcə bir misalı gətirmək kifayətdir ki, biz bunu sübut edək, o da 155 ölkənin bizim namizədliyimizi BMT Təhlükəsizlik Şurasına üzv kimi dəstəkləməsidir. Bu, beynəlxalq aləmin mütləq əksəriyyətidir. Bu dəstəyi biz öz siyasətimizlə qazanmışıq. O siyasət ki, beynəlxalq hüquqa və ədalətə əsaslanır. Bu iki vacib prinsip həmişə bizim üçün əsas olub. Biz bu prinsiplərə sadiqik. Bu prinsiplər bütövlükdə beynəlxalq münasibətlərin tənzimlənməsində də üstünlük təşkil etməlidir.

Biz bundan sonra da beynəlxalq arenadakı rolumuzu fəal aparacağıq. Bizim bütün ölkələrlə qarşılıqlı hörmət və bir-birinin işinə qarışmamaq şərti ilə münasibətlərimiz qurulub. Bu münasibətləri biz möhkəmləndirəcəyik. Qonşu dövlətlərlə əlaqələrimiz daha da yüksək pilləyə qalxacaqdır. Mən buna əminəm. Çünki hazırda başladığımız və davam etdirdiyimiz iqtisadi və digər layihələr bunu deməyə əsas verir".

Azərbaycan Prezidenti vurğulayıb ki, ölkə iqtisadiyyatının dayanıqlı inkişafını ancaq bu amillər - qeyri-neft sektoru, sahibkarlıq, idarəetmədə aparılan və aparılacaq islahatlar müəyyən edəcək: "Ona görə iqtisadiyyatın şaxələndirilməsi, mütərəqqi beynəlxalq təcrübənin Azərbaycana gətirilməsi, maliyyə, fiskal siyasətində ən qabaqcıl texnologiyalardan istifadə etməyimiz inkişafımız üçün əsas amillər olacaqdır. Deyə bilərəm ki, bu siyasət artıq öz nəticəsini vermişdir. Keçən ilin iqtisadi göstəriciləri göstərdi və sübut etdi ki, biz düzgün yoldayıq. İqtisadiyyatın qeyri-neft sektoru 2,7 faiz, sənayedə qeyri-neft sektorunun artımı 3,7 faiz, kənd təsərrüfatı 4,1 faiz, valyuta ehtiyatlarımız 4,5 milyard dollar artmışdır. Bu ilin yanvar ayının nəticələri də mənə məruzə edildi. Bu barədə də demək istəyirəm. Bu, göstərir ki, mən əvvəlki aylarda dediyim kimi, 2018-ci il sürətli inkişaf ili olacaqdır. Beləliklə, yanvar ayında Azərbaycanda ümumdaxili məhsul 2 faiz, qeyri-neft iqtisadiyyatımız təxminən 4 faiz, sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 8,7 faiz artıb. İnflyasiya birinci ayda 5,5 faizdir, əhalinin pul gəlirləri 11 faizdən çoxdur. Yəni, əhalinin gəlirləri inflyasiyanı iki dəfə üstələyir. Bu ilin yanvar ayında bizim valyuta ehtiyatlarımız 2 milyard dollar artıb və bu gün valyuta ehtiyatlarımız 44 milyard dollar səviyyəsindədir. Bu, hələ ilin əvvəlidir. Mən əminəm ki, 2018-ci il sürətli inkişaf ili olacaq və ondan sonrakı bütün illərə çox güclü təkan verəcək. Kənd təsərrüfatında, sənaye sahəsində indi həyata keçirilən layihələr tezliklə, bir-iki il ərzində öz bəhrəsini verəcəkdir".

Prezident İlham Əliyev nəzərə çatdırıb ki, əsas dəyərimiz, ən böyük nemətimiz müstəqilliyimizdir: "Biz müstəqil ölkə kimi yaşayırıq. Müstəqilliyimizin də banisi ulu öndər Heydər Əliyevdir. Məhz onun hakimiyyətə gəlməsindən sonra Azərbaycan, sözün əsl mənasında, müstəqillik yoluna qədəm qoydu. 1993-cü ilə qədər bizim müstəqilliyimiz şərti və yarımçıq xarakter daşıyırdı. Xarici ölkələr, onların Azərbaycandakı nümayəndələri burada hakimiyyətə göstərişlər, təlimatlar verirdi. Əlbəttə ki, bu, tariximizin bəlkə də ən biabırçı səhifələrindən biridir. O ağır vəziyyətdə məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi, - o vaxt bizim hələ ordumuz, iqtisadiyyatımız, pulumuz yox idi, - onun dəmir iradəsi, xalqın ona olan sevgisi, rəğbəti Azərbaycanı, bax, bu müstəqillik yoluna çıxarıbdır. Biz də bu müstəqil yol ilə gedirik və gedəcəyik".

*****

Sonra çıxış edən işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin sakini Oqtay Həziyev, YAP Kəngərli rayon təşkilatının sədri Sevda Quliyeva, Milli Məclisin deputatı Rəşad Mahmudov, Gəncə şəhərindən olan iş adamı Elnur Camalxanov, Qusar şəhərindəki Heydər Əliyev Mərkəzinin direktoru Neva Abdurahmanova, ADA Universitetinin tələbəsi Emil Aslanlı dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən böyük quruculuq işlərindən, əldə olunan nailiyyətlərdən bəhs etdilər. Çıxışlarda 2018-ci il aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində partiyanın sədri İlham Əliyevin namizədliyinin irəli sürülməsi təklif olundu.

YAP-ın sədr müavini-icra katibi, Baş nazirin müavini Əli Əhmədov 2018-ci il aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində partiyanın sədri İlham Əliyevin namizədliyinin irəli sürülməsi barədə qurultayın qərarını təqdim etdi.

Qərar yekdilliklə qəbul olundu.

YAP-ın sədri, dövlətimizin başçısı İlham Əliyev ona göstərilən dəstəyə görə minnətdarlığını bildirdi.

Yeni Azərbaycan Partiyasının VI qurultayı Dövlət Himninin səslənməsi ilə başa çatdı.

GENERAL-MAYOR ŞİRİN XƏLİLOV EHTİYATA BURAXILIB

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Daxili Qoşunlar Komandanının 1-ci müavini-Qərargah rəisi general-mayor Şirin Xəlilov hərbi xidmətdə olmağın son yaş həddinə çatması ilə əlaqədar, "Hərbi Xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinin "b" bəndinə (yaşa görə) əsasən tutduğu vəzifədən azad edilərək, Azərbaycan Respublikası Silahlı Qüvvələrinə ehtiyata buraxılıb.

Ümumilikdə, həyatının 44 ilini hərbi xidmətdə olmuş, 1991-ci ildən Daxili İşlər Nazirliyi sistemində və Daxili Qoşunların sıralarında şərəfli yol keçmiş general-mayor Ş.Xəlilovun zəngin bioqrafiyası onun xidmətləri, çoxşaxəli fəaliyyəti barədə dolğun təsəvvür yaradır.

1955-ci ildə Naxçıvan Muxtar Respublikası Babək rayonunun Didivar kəndində anadan olub. 1973-1975-ci illərdə SSRİ DİN-in Daxili Qoşunlarında müddətli həqiqi hərbi xidmət keçib. 1975-1979-cu illərdə SSRİ DİN-in Orconikidze Ali Hərbi Komandanlıq Məktəbində təhsil alıb.

1979-1991-ci illərdə SSRİ DİN-in Daxili Qoşunlarında taqım komandiri, bölük komandirinin tərbiyə işləri üzrə müavini, bölük komandiri, tabor komandirinin müavini - qərargah rəisi, əməliyyat şöbəsi rəisinin baş köməkçisi vəzifələrində xidmət edib.

1991-ci ildə xidmətini davam etdirmək üçün Azərbaycan Respublikası DİN-in sərəncamına göndərilib.

1991-1995-ci illərdə Azərbaycan Respublikası DİN-in xüsusi təyinatlı milis dəstəsində bölük komandirinin müavini, Naxçıvan Muxtar Respublikası DİN-in qərargahının əməliyyat bölməsində baş inspektor, kadrlarla peşə hazırlığı üzrə inspektor, katibliyin rəisi vəzifələrində işləyib.

1995-2003-cü illərdə DİN-in Daxili Qoşunların Baş İdarəsinin Əməliyyat şöbəsində baş zabit, hərbi hissə (briqada) komandirinin müavini - qərargah rəisi, Baş İdarənin Döyüş hazırlığı şöbəsində xüsusi təyinatlı bölmələrin hazırlığı üzrə baş zabit, hərbi hissə (alay) komandiri vəzifələrində xidmət edib.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 25 dekabr tarixli, 50 nömrəli Sərəncamı ilə Daxili Qoşunlar Komandanının 1-ci müavini - Qərargah rəisi vəzifəsinə təyin edilib.

Respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak edib. Xidməti fəaliyyətindəki uğurlarına görə müxtəlif mükafatlara layiq görülüb. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 30 iyun, 2008-ci il 11 mart və 2013-cü il 12 mart tarixli sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.

Azərbaycan Respublikası Prezidentinin 6 may 2005-ci il tarixli, 802 nömrəli Sərəncamı ilə ona "general-mayor" hərbi rütbəsi verilib.

General-mayor Ş.Xəlilov Daxili Qoşunların xidməti-döyüş fəaliyyətinin təkmilləşdirilməsi, şəxsi heyətin döyüş hazırlığı və qabiliyyətinin inkişaf etdirilməsi yönündə əməyini əsirgəməyib. O, xidməti fəaliyyəti dövründə şəxsi heyətin, Daxili Qoşunların veteranlarının hörmətini qazanıb.

Fevralın 9-da Daxili Qoşunların Baş İdarəsində general-mayor Ş.Xəlilovun Silahlı Qüvvələrə ehtiyata yola salınması mərasimi keçirilib.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov general-mayor Ş.Xəlilovun keçdiyi xidmət yolunu yüksək qiymətləndirib. O, general-mayor Ş.Xəlilovun həmişə dövlətçiliyimizə sadiq olduğunu, tutduğu məsul vəzifələrdə bilik və təcrübəsindən bəhrələnərək, əzmlə çalışdığını vurğulayıb, onun bir sıra fərdi keyfiyyətlərini örnək olaraq göstərib.

Daxili Qoşunların Komandanı general-mayor Ş.Xəlilova uzun ömür, cansağlığı arzulayaraq, qoşunlarla əlaqələrini qoruyub saxlayacağına əminliyini ifadə edib.

General-mayor Ş.Xəlilov öz növbəsində onun fəaliyyətinə verilən yüksək qiymətə, şəxsinə göstərilən diqqət və qayğıya görə Respublika Prezidentinə, Daxili İşlər Nazirinə və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanına dərin minnətdarlığını bildirib.

Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

Mətbuat xidməti

DAXİLİ QOŞUNLARDA XİDMƏTƏ YENİ QƏBUL EDİLMİŞ ÇAĞIRIŞÇILARIN HƏRBİ ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb

Fevralın 10-da Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 25031 saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş əsgərlərin hərbi andiçmə mərasimi keçirilib.

Tədbirdə Daxili Qoşunlar Komandanının müavini - Şəxsi heyət üzrə İdarənin rəisi general-mayor Vidadi Əliyev, Daxili Qoşunların Veteranlar Şurasının üzvləri və əsgər valideynləri iştirak ediblər.

Mərasim Milli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb, Dövlət Himni ifa edilib.

Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Sonra hərbi hissə komandiri polkovnik Əhliman İlmazov çıxış edərək əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına sadiq olacaqlarına and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrinin tələblərini xatırladıb.

General-mayor V.Əliyev çıxış edərək Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbrikini çatdırıb.

Təbrikdə hər bir əsgərin Vətənə şərəflə xidmət edəcəyinə, Azərbaycan Respublikasının qanunlarına, hərbi anda və nizamnamələrin tələblərinə ciddi riayət edəcəyinə, eləcə də yüksək döyüş hazırlığına və ciddi nizam-intizama malik olacaqlarına əminlik ifadə olunub.

Tədbirdə çıxış edən digər qonaqlar da hərbi andı qəbul edən əsgərləri səmimi qəlbdən təbrik edib, onlara xidmətlərində müvəffəqiyyətlər arzulayıblar. Qeyd olunub ki, hər bir hərbi qulluqçu xidmət dövründə Azərbaycan əsgərinə xas olan bütün keyfiyyətləri mənimsəməli, Vətənə, xalqa, dövlət və dövlətçiliyimizə sonsuz sədaqətlə xidmət etməlidir.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

Mətbuat xidməti

2_Layout 1 14.02.2018 9:22 Page 1

XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNİN YEKUNLARINA GÖRƏ QABAQCIL BÖLÜK...

Ali Hərbi Məktəbin komendant bölüyünün şəxsi heyəti hər zaman yüksək döyüş hazırlığını, nizam-intizamı qoruyub saxlayır, qoyulan tapşırıqları vaxtında və dəqiq icra edir. Ötən ilin ikinci yarımilliyində xidməti-döyüş fəaliyyətinin yekunlarına görə Ali Hərbi Məktəbin qabaqcıl bölüyü seçilməsi də deyilənləri sübut edir. Bölük komandiri baş leytenant Allahverdi Nəbiyev də əldə olunmuş nailiyyətləri daim qoruyub saxlamaq üçün var qüvvəsi ilə çalışır.

O, 1987-ci il aprel ayının 4-də Ermənistanın Vardenis rayonunun Pəmbək kəndində doğulub. Orta təhsilini başa vurduqdan sonra 2008-2010-cu illərdə Daxili Qoşunların 67987 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2010-2012-ci illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində təhsil alıb. Müxtəlif vəzifələrdə xidmət edib. İlk olaraq, təminat taqımının komandiri, 2014-cü ilin noyabrından komendant bölüyündə bölük komandirinin müavini, 2015-ci ilin dekabr ayından isə komendant bölüyünün komandiridir.

Şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığına, tərbiyəsinə, hərbi intizamına və mənəvi vəziyyətinə, həmçinin, bölükdə daxili qayda-qanuna riayət edilməsinə cavabdehdir. Vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçumuz komandanlıq tərəfindən də müsbət xarakterizə edilir, dəfələrlə mükafatlandırılıb.

Baş leytenant A.Nəbiyev bildirir ki, bölüyün xidmətinin xüsusiyyəti seçilən hərbi qulluqçuların mənəvi-psixoloji durumuna, nizam-intizamlı olmalarına xüsusilə diqqət yetirilməsini tələb edir. Xidmətə cəlb olunmamışdan öncə hər biri tibbi müayinədən keçirilir, taqım komandiri baş leytenant Əmrah Cavadov, bölük komandirinin müavini və bölük komandiri, həmçinin tərbiyə bölməsində psixoloq Mərifət Məmmədova tərəfindən onlarla söhbətlər aparılır. Səhhətində problemi olanlar, mənəvi-psixoloji durumu stabil olmayan hərbi qulluqçular dərhal xidmətdən uzaqlaşdırılır.

Təlimat məşğələsi isə qarovul şəhərciyində keçirilir: "Burada xidmətə cəlb olunan şəxsi heyətə daxili qayda-qanun, xidmətin düzgün aparılması, silahların doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması barədə təlimat verilir".

Bölük komandiri tərbiyə işi planlarına əsasən, şəxsi heyətin asudə vaxtının səmərəli keçirilməsinin, müxtəlif stolüstü oyunların təşkilinin, o cümlədən, onların vaxtlı-vaxtında qidalanmalarının da diqqət mərkəzində saxlandığını sözlərinə əlavə etdi. O, xidmətdə fərqlənən hərbi qulluqçulardan manqa komandiri çavuş Elvin Abbasovun, əsgərlərdən Məhəmməd Nəsibovun və Neman Gəraylının adlarını çəkdi. Həmin hərbi qulluqçular haqqında da qısa məlumat vermək istərdik.

Çavuş E.Abbasov 1998-ci il sentyabrın 25-də Gəncə şəhərində anadan olub. Orta təhsillidir. 2016-cı ilin oktyabr ayından müddətli həqiqi hərbi xidmətdədir. Kiçik komandirlər hazırlayan tədris kursunda təhsil alıb. Qarovul rəisinin köməkçisi kimi xidmətə cəlb olunur. Postların vaxtlı-vaxtında dəyişdirilməsinə, xidmətin düzgün aparılmasına nəzarət edir, qarovulun tərbiyə işi planında nəzərdə tutulan digər tədbirləri həyata keçirir.

Əsgər M.Nəsibov bölüyün fərqlənən digər hərbi qulluqçusudur. 1999-cu il martın 21-də Göygöl rayonunda doğulub. Orta təhsillidir. 2017-ci ilin aprel ayından müddətli həqiqi hərbi xidmətdədir. Qarovul nəfəri kimi xidmətə cəlb olunur, ayıq-sayıqlığı, nizam-intizamı ilə seçilir. Döyüş bayrağını, hərbi hissənin anbarlarını etibarlı şəkildə mühafizə edir. Daxili Qoşunlarda xidməti ilə qürur duyduğunu bildirir.

Əsgər N.Gəraylı da bölük komandiri tərəfindən savadlı, hər zaman öz üzərində çalışan hərbi qulluqçu kimi xarakterizə edilir.

1999-cu il fevralın 28-də İsmayıllı rayonunda dünyaya göz açıb. O da 2017-ci ilin aprel ayından müddətli həqiqi hərbi xidmətdədir, qarovul nəfəri kimi xidmətə cəlb olunur. Ona verilən tapşırıqları məsuliyyətlə icra edir.

baş leytenant X.Hacızadə

HƏRBİ QULLUQÇULARIMIZ SAYIQLIQLARI İLƏ YENƏ DƏ FƏRQLƏNİBLƏR

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının əsas vəzifələrindən biri həvalə olunmuş mühüm dövlət obyektlərinin mühafizəsidir ki, qoşunlar bu tapşırığın öhdəsindən layiqincə gəlir.

Xüsusilə 16076 saylı hərbi hissənin hərbi qulluqçuları hər zaman ayıq-sayıq xidmətləri ilə fərqlənirlər. Belə ki, yanvarın 29-da mühafizə olunan inzibati bina üzrə təyin olunmuş qarovulda xidmət aparan saatdar - hərbi hissənin mühafizə taqımının atıcı əsgəri Kərim Osmanlı saat 23:34 radələrində postun qadağan olunan sahəsinə yaxınlaşan vətəndaşı xəbərdar etsə də, o, verilən komandaya əhəmiyyət verməyib. Bu barədə hərbi qulluqçumuz dərhal qarovul rəisi gizir Bahadur Abbaszadəyə məlumat verib.

Gizir B.Abbaszadə tərəfindən müvafiq tədbirlər görülərək, vətəndaş Daxili İşlər Nazirliyinin komendant xidmətinin polis əməkdaşlarına təhvil verilib.

Bundan başqa, yanvarın 30-da saat 19:25 radələrində Nardaran qəsəbəsində hüquqi rejimin təmin edilməsi üzrə qoşun naryadında xidmət aparan 67987 saylı hərbi hissənin hərbi qulluqçuları - əsgərlər Samir Alıyev və Rəşad Abbasov mühafizə olunan postun ərazisində Neftçala rayon sakini vətəndaş Möhübbəttin Nağıyevi şübhəli şəxs qismində saxlayaraq, müvafiq polis bölməsinin növbətçi hissəsinə təhvil veriblər.

Hərbi qulluqçularımız hissə komandirlərinin müvafiq əmri ilə mükafatlandırılıblar.

baş leytenant X.Hacızadə

DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİNDƏ AZƏRBAYCAN GƏNCLƏR GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB

Fevralın 2-də Daxili Qoşunların Baş İdarəsində 2 fevral - Azərbaycan Gənclər Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Dünya Gənc Türk Yazarlar Birliyinin Məsləhət Şurasının sədri, Respublikanın Fəxri Gənci Əkbər Qoşalı iştirak edib.

Azərbaycan dövləti tərəfindən həyata keçirilən gənclər siyasətinin mahiyyəti, istiqamətləri barədə çıxış edən Ə.Qoşalı bu sahədə atılan mütərəqqi addımların Milli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə gerçəkləşdiyini diqqətə çatdırıb.

Qeyd edib ki, Gənclər Günü SSRİ məkanında və Şərqi Avropada ilk dəfə olaraq Azərbaycanda qeyd olunub. Hələ ötən əsrin sonlarında ölkədə baş verən gərgin ictimai-siyasi proseslər zamanı fiziki və mənəvi təzyiqlərə məruz qalan, cəmiyyətin laqeydliyi və biganəliyi ilə qarşılaşan sosial qruplardan biri də gənclər idi: "Düzdür, həmin vaxtlarda respublikada müxtəlif gənclər təşkilatları yaradıldı. Lakin bu təşkilatlar gənclərin mənəvi-estetik tərbiyəsinin formalaşdırılmasında, onların sosial qayğılarının həll edilməsində rol oynaya bilmədi. Onların əksəriyyəti əsasən tələbələri və qismən də müharibə iştirakçılarını əhatə edirdi. Gənclərin digər kateqoriyaları isə həmin qurumlardan kənarda qalırdı. Bu çatışmazlıqların aradan qaldırılmasında, gənc nəslin əsl vətəndaş kimi tərbiyə olunmasında, onların bir qüvvə kimi cəmləşdirilməsində və dövlət gənclər siyasətinin formalaşdırılmasında Milli Lider Heydər Əliyevin rolu danılmazdır".

Məruzəçinin sözlərinə görə, məhz Ulu Öndərin ölkəyə rəhbərliyi dövründə - 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan Respublikası Gənclərinin I Forumunun keçirilməsi haqqında, 1997-ci ilin fevral ayının 1-də isə 2 fevral - Azərbaycan Gəncləri Günü elan edilməsi haqqında sərəncamlar imzalandı. Gənclər və İdman Nazirliyi yaradıldı. Bütün bunlar Azərbaycan gənclərinə göstərilən qayğının və diqqətin təzahürü idi. Yalnız bundan sonra digər MDB və Şərqi Avropa dövlətlərində bu bayram qeyd olunmağa başladı.

Respublika Gənclərinin I Forumunun keçirilməsini, əslində, çox mühüm əhəmiyyət kəsb edən tarixi hadisə kimi dəyərləndirən Ə.Qoşalı bildirdi ki, həmin tədbirdə Heydər Əliyevin nitqi hər bir Azərbaycan gəncinin gələcək fəaliyyəti üçün həyat devizinə çevrildi: "Gənclərimizin ən ümdə vəzifəsi Vətənə, ölkəmizə, doğma torpağımıza daim sədaqətli olmaqdır. İnsan öz evini, övladlarını, ata-anasını, öz əmlakını, əşyasını qoruduğu kimi, hər bir gənc, hər bir azərbaycanlı, Azərbaycanın hər bir vətəndaşı da eyni zamanda öz doğma Azərbaycan torpağını, Azərbaycan Respublikasını qorumalı, göz bəbəyi kimi saxlamalıdır".

O, çıxışının sonunda Azərbaycan gəncliyini, Silahlı Qüvvələrdə, o cümlədən Daxili Qoşunların sıralarında fədakar xidmət edən gəncləri təbrik edərək, uğurlar arzulayıb.

Mətbuat xidməti

12565 SAYLI HƏRBİ HİSSƏNİN NÜMUNƏVİ HƏRBİ QULLUQÇULARI...

Daxili Qoşunların 12565 saylı hərbi hissəsinin nümunəvi, nizam-intizamlı müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından olan **kiçik çavuş Mənaf Qəhrəmanov** 1998-ci il fevralın 8-də Bakı şəhərində anadan olub. Bakı Olimpiya İdman Liseyində təhsil alıb.

2016-cı ildən Daxili Qoşunların 12565 saylı hərbi hissəsində xüsusi təyinatlı dəstənin təminat taqımı komandirinin müavini vəzifəsində xidmət edir. Vəzifələrinin öhdəsindən layiqincə gəlir, hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Ona verilən bütün tapşırıqları vaxtında, dəqiq və düzgün icra edir.

İdmanın müxtəlif növlərinə maraq göstərsə də, əsasən sərbəst güləş üzrə keçirilən yarışlarda uğurlar qazanıb. 2016-cı ildə Naxçıvanda müxtəlif qoşun növləri arasında sərbəst güləş üzrə keçirilən yarışda 75 kq çəki dərəcəsində mübarizə apararaq, bütün rəqiblərini üstələyib və 1-ci yeri qazanıb. O, eyni zamanda, Daxili Qoşunların hərbi hissələri arasında keçirilən yarışlarda da dəfələrlə fərqlənərək mükafatlandırılıb.

Hərbi qulluqçumuzun uğurları bununla da yekunlaşmır. Belə ki, ötən ilin dekabr ayında Gənclər və İdman Nazirliyinin təşəbbüsü ilə Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təşkil edilən tədbirdə kiçik çavuş M.Qəhrəmanov nümunəvi xidmətinə görə "İlin əsgəri" nominasiyasında mükafata layiq görülüb.

Komandir müavini kimi taqımda daxili qayda-qanunun, hərbi intizamın qorunub saxlanılmasına, şəxsi heyətin düzgün xidmət aparmasına nəzarət edir. Tabeliyindəki şəxsi heyətə qarşı ciddi və tələbkar olsa da, eyni zamanda onların hər birinə qayğı və diqqətlə yanaşır, çətinliklərinin aradan qaldırılmasında köməklik göstərir.

Şəxsi heyətin bilik və bacarıqlarının artırılması məqsədilə müxtəlif mövzularda məşğələlərin keçirilməsində fəallıq nümayiş etdirir, fiziki hazırlıq məşğələlərinə xüsusilə diqqət yetirir.

Hərbi hissənin artilleriya batareyasının kəşfiyyat və idarə taqımında kəşfiyyat manqa komandiri müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu **kiçik çavuş Elmir Ərəbov** isə 1995-ci il sentyabr ayının 17-də Bakı şəhərində dünyaya gəlib. Orta təhsilini Xətai rayonunda yerləşən 269 nömrəli məktəbdə alıb. 2013-2017-ci illərdə Kooperasiya Universitetinin "Ekspertiza və texnologiya" fakültəsində təhsilini davam etdirib.

2017-ci ildən 12565 saylı hərbi hissədə xidmət edir. Dəfələrlə Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Naziri, hərbi hissə və bölük komandiri tərəfindən mükafatlandırılıb. Daim öz üzərində çalışan hərbi qulluqçumuz komandanlığın etimadını doğrultmağa çalışır. Şəxsi heyətin təlim-tərbiyəsinə, hərbi intizamına və mənəvi-psixoloji durumuna, həmçinin sıra hazırlığına və zahiri görkəminin səliqəsinə ciddi nəzarət edir.

Digər bir intizamlı hərbi qulluqçumuz - **əsgər Mətləb Qocayev** hərbi hissənin komendant taqımında atıcı vəzifəsində xidmət edir. Orta təhsillidir.

2017-ci ilin iyul ayından Daxili Qoşunların sıralarındadır. Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Bölmə komandiri tərəfindən dəfələrlə mükafatlandırılıb.

Döyüş xidmətinə cəlb edilən şəxsi heyətin döyüş bayrağını, hərbi obyektləri mühafizə etdiyini bildirən əsgər M.Qocayev komendant bölüyündə xidmət etməyin olduqca məsuliyyətli olduğunu da vurğulayıb: "Komendant bölüyü təyinatına uyğun olaraq mühüm vəzifələri icra edir. Nə qədər çətin olsa da, hərbi qulluqçularımız bundan sonra da üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, döyüş hazırlığını hər zaman yüksək səviyyədə saxlayacaqlar".

12565 saylı hərbi hissənin ştatdankənar müxbir postu

3_Layout 1 13.02.2018 18:33 Page 1

ŞƏHİDLƏRİMİZ

DÖYÜŞÇÜ HÜNƏRİ İLƏ ƏBƏDİYYƏTƏ QOVUŞDU...

1992-1994-cü illərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları respublikamızın ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edib. Bu döyüş yolunu Vətənə məhəbbət və sədaqət, hərbi şücaət, yenilməz iradə nümunəsi kimi xarakterizə etmək olar. O illərdə Daxili Qoşunlar ön cəbhədə öz sıralarından yüzlərlə cəsur hərbi qulluqçusunu itirdi. Onların xatirəsi daim qəlbimizdə yaşayacaq. Bu hərbi qulluqçular haqqında son illər apardığım tədqiqatlar məni müxtəlif ünvanlara yönəldib. Vətən yolunda şəhidlik zirvəsinə ucalmış hərbi qulluqçularımızın ailələrinin yaşadıqları həmin ünvanlar respublikamızın əksər şəhər və rayonlarını əhatə edir. Vətənpərvər ruhlu şəhid ailələri ilə ünsiyyət zamanı bir daha əmin oluram ki, qeyrətli oğulların yetişməsində bünövrədən tərbiyə amili böyük rol oynayır.

Əsgər Misirxanov Elxan Sərxan oğlu

Şəhid hərbi qulluqçularımızdan biri olan əsgər Misirxanov Elxan Sərxan oğlu 7 iyun 1973-cü ildə Bakı şəhərində anadan olub. Onun ata yurdu bu gün işğal altında olan Cəbrayıl rayonunun Balyand kəndidir. Misirxanovlar ailəsində iki qız, üç oğul övladı dünyaya gəlib. Valideynləri Sərxan Misirxanov və Nigar Haqverdiyevanın tərbiyə verdiyi və cəmiyyətimizə layiqli vətəndaş kimi yetişdirdiyi bu övladların arasında Elxan bir sıra fərdi cəhətlərinə görə fərqlənirdi. Xüsusən də idmana həvəs göstərməsi (o vaxtkı "Lokomotiv" İdman Cəmiyyətinin üzvü olub - Y.A.), cüdoçu kimi tatami üzərində mübarizlik əzmini nümayiş etdirməsi, ancaq eyni zamanda təmkinli olması, öz iradəsini möhkəmləndirməsi onun əsl döyüşçü kimi formalaşmasının təməlini qoyub.

Elxanın babaları II Dünya müharibəsində iştirak ediblər. Babası Həsənxan Misirxanov faşistlərlə döyüşlərin birində həlak olub. Digər babası Şahverdi Allahverdiyev isə ön cəbhədə yaralansa da, müharibədən sağ qayıdıb. Elxan həmişə babaları ilə fəxr edib.

O, Bakı şəhəri Sabunçu rayonunun Zabrat, İstixana Kombinatı qəsəbəsindəki 71 nömrəli orta məktəbin məzunudur. Orta məktəbdə oxuyarkən müəllimlərinin və yoldaşlarının hörmətini qazanıb. Orta məktəbdən sonra 2 nömrəli peşə məktəbində təhsil alıb. Burada dəmir yolu sahəsinə aid ixtisasa yiyələnib. Daha sonra sovet ordusu sıralarına hərbi xidmətə çağırılıb. SSRİ Müdafiə Nazirliyinin Ukraynanın Çerniqov vilayətində yerləşən hərbi hissəsində xidmət edib. Orada tank heyətində sürücü-mexanik hərbi ixtisasına, müxtəlif növ atıcı silahlardan atəş açmaq bacarığına yiyələnən, döyüş taktikası fəndlərini öyrənən Elxan üçün özünün də gözləmədiyi bir məqam yetişdi...

1991-ci ildə artıq SSRİ kimi fövqəl bir dövləti xaos bürümüşdü. Nəhəng bir ölkə idarəolunmaz bir vəziyyətə gələrək dərin böhran içində idi. Vaxtilə zor gücünə qurulmuş, onlarla xalqın azad yaşamaq haqqını tapdamış, dünyanın inkişaf axarı ilə ayaqlaşa bilməyən SSRİ-nin çöküşü sürətli bir prosesə çevrilmişdi.

1991-ci il oktyabrın 18-də Azərbaycanın öz dövlət müstəqilliyini elan etməsi ilə xalqımız tarixi arzusuna qovuşdu. Bu xəbəri vətəndən uzaqlarda hərbi xidmət keçən azərbaycanlı gənclər də sevinc və coşqu ilə qarşıladılar. Onların arasında Elxan da vardı. O, 1991-ci ilin dekabr ayında həmvətəni olan bir qrup əsgər yoldaşı ilə vətənə dönür, yenicə müstəqillik qazanmış respublikamıza xidmət etməyi özünün şərəfli vəzifəsi bilir.

Həmin dövrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi daha da kəskinləşmişdi. Dağlıq Qarabağda azərbaycanlı yaşayış məntəqələri və Ermənistanla həmsərhəd rayonlarımız ermənilərin hərbi təcavüzünə məruz qalırdı. Bir tərəfdən də ölkədaxili ictimai təlatümlər və qarşıdurmalar ara vermirdi. Belə vəziyyət torpaqlarımızın işğalı təhlükəsini artırırdı.

1992-ci il fevralın 26-da Xocalıda soydaşlarımıza qarşı törədilmiş soyqırım erməni faşizminin nəyə qadir olduğunu bütün dünyaya göstərdi. Bu dəhşətli faciədən sonra düşməndən qisas almaq əzmi ilə neçə-neçə gənc silaha sarıldı və ön cəbhəyə yollandı.

O vaxt ordumuzun ilk hissələri yeni formalaşırdı. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının da yaranması prosesi gedirdi. 1992-ci ilin 12 mart tarixindən etibarən Daxili Qoşunlar erməni işğalçılarına qarşı döyüşə başlamışdı.

E.Misirxanov 1992-ci ilin aprel ayında həqiqi hərbi xidmətə çağırılaraq Daxili Qoşunların sıralarına qəbul olunub. O, 12318 və 25032 saylı hərbi hissələrdə bir müddət hərbi xidmət keçib və sonra ön cəbhəyə göndərilib. Müstəqil dövlətimizin hərbi qulluqçusu kimi hərbi and içməsi, müqəddəs üçrəngli bayrağımızın hərbi hissələrimizdə dalğalanması sovet ordusunda hərbi xidmət keçmiş gənc olaraq onun qəlbində böyük ruh yüksəkliyi yaratmışdı. Onun 67987 saylı hərbi hissənin tərkibində Ağdam-Ağdərə cəbhə bölgəsindəki Papravənd, Qalayçılar, Şelli, Xıdırlı, Xatınbəyli, Əmiralılar, Seyidlər, Qazançı, Çıldıran, Drımbon (Heyvalı), Kaçaqot (Yayıcı), Manikli, Canyataq, Gülyataq kəndləri, Fərrux və Sığınaq yüksəkliklərindən keçən döyüş yolu hərbçi şücaəti və fədakarlığının nümunəsidir. O, düşmənə qarşı qətiyyət və cəsarətlə döyüşürdü. Hücum və müdafiə xarakterli döyüşlərdə düşmənin xeyli canlı qüvvəsini məhv edib, atəş nöqtələrinin darmadağın edilməsində əsgəri hünəri ilə fərqlənib. Komandirlər onun qorxmazlığını döyüşçülərə nümunə göstərirdilər. 1992-ci il oktyabr ayının 28-də döyüşdə ayağından yaralanıb. DİN-in qospitalında müalicə olunduqdan sonra Elxan yenidən döyüşlərə atılıb. Döyüşlərdən birində bu dəfə yüngül dərəcədə yaralanıb, ancaq yenə də ruhdan düşməyib, ağır sınaqlardan çəkinməyib.

Şəhidin təhsil aldığı 71 nömrəli tam orta məktəbdəki büstü.

Əsgər E.Misirxanov 1993-cü il martın 5-dən 11-dək Sığınaq yüksəkliyi ərazisində döyüşlər zamanı şəhid olub. Həmin ərazidə mühasirəyə düşmək təhlükəsi ilə üz-üzə qalmış döyüşçülərdən biri kimi son nəfəsinədək dəyanətlə vuruşub. Ölüm şəhadətnaməsində həlak olduğu tarix 11.03.1993-cü il göstərilib. Sənəddə qeyd olunub ki, hərbi qulluqçu güllə yarasından həlak olub. Şəhid hərbi qulluqçumuzun cənazəsi martın 12-də Bakıya gətirilib. O, paytaxtın Sabunçu rayonu Bakıxanov qəsəbəsindəki Şəhidlər Xiyabanında dəfn edilib.

Vaxtilə təhsil aldığı 71 nömrəli orta məktəbə 18.04.1994-cü ildə şəhidin adı verilib. Orta məktəbdə onun büstü qoyulub və xatirə guşəsi yaradılıb. Elxan orta məktəbin ilk şəhididir. Misirxanovlar ailəsi məktəbə şəhidin adının verilməsi və orada büstünün qoyulması məsələsində Elxanın ədəbiyyat müəlliməsi olmuş Gülzar İbrahimovanın və həyat yoldaşı, ziyalı insan Tahir İbrahimovun təqdirəlayiq fəaliyyətini, şəhidin büstünün hazırlanmasında əməyi olan şəxslərdən Vahid Hacıyev, Seyran Zülfüqarov, Arif Musayev və Rəfael Cəfərovun xeyirxahlığını minnətdarlıqla qeyd etdilər. Şəhid ailəsinə mərhum Ramiz Mirzəyev də (uzun illər neft sənayesi müəssisələrində məsul vəzifələrdə çalışıb - Y.A.) vaxtilə diqqət və qayğısını əsirgəməyib.

Hərbi qulluqçumuz haqqında bu günədək respublikamızın bir sıra qəzetlərində məqalələr dərc olunub. Həmin məqalələrdə onun döyüş yolu işıqlandırılıb.

Şəhidin ailəsinə dövlət tərəfindən müvafiq müavinət verilir. Elxanın valideynləri pensiyaçıdırlar. Onların əmək fəaliyyəti müxtəlif müəssisələrdə keçib, halal zəhmət insanlarıdırlar. Qardaşları Babək Misirxanov, Bəhruz Misirxanov və bacıları Sevda Misirxanova, Sücaət Misirxanova müxtəlif peşə sahibidirlər, hər biri öz sahəsində dövlətimizin tərəqqisi üçün çalışır. Onların xatirəsində Elxan həmişə cavan qalacaq, onun yoxluğunun ağrı-acısı ilə yaşasalar da, şəhidin doğmaları olduqlarından qürur duyurlar. Misirxanovlar ailəsinin bir oğul nəvəsi Elxanın adını daşıyır.

Şəhidin atası mənimlə söhbətində dedi ki, işğal olunmuş torpaqlarımız azad olunsa, şəhid ruhları da rahatlıq tapar, onların doğmaları üçün isə bu, böyük təsəlli olar. Şəhidlər o günə qovuşmaq üçün canlarını fəda etdilər və biz xalq olaraq bu arzumuza mütləq qovuşacağıq!

Allah rəhmət eləsin!

Yalçın Abbasov

MƏNƏVİ-PSİXOLOJİ HAZIRLIQ AMİLİ VƏ KƏNAR İDEOLOJİ TƏSİRLƏRİN ÖNLƏNMƏSİ

Hərbi qulluqçunun xarakteri, ailə vəziyyəti, dünyagörüşü, təhsili və digər şəxsi keyfiyyətlərindən asılı olmayaraq, onun mənəvi-psixoloji hazırlığının düzgün formalaşması hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsində müstəsna əhəmiyyət kəsb edir. Nəzərə almaq lazımdır ki, qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarının icrasına cəlb olunan şəxsi heyətin yüksək mənəvi-psixoloji hazırlığı onlara mübariz ruh, dəyanət hissi aşılayır, əzmkarlığa təşviq edir, hərbi anda sədaqətli olmağın, özünə inamın və aid olduğu bölməyə güvəncin vacibliyi fikrinin şüurlu şəkildə qavranmasının təməlini qoyur, nizam-intizamı möhkəmləndirir, uğurların qazanılmasına həvəsləndirici təkan verir.

Mənəvi-psixoloji hazırlıq prosesində sistemlilik, fasiləsizlik, daim təkmilləşmə, çoxşaxəlilik, aktuallıq, təcrübə, müasir dövrün çağırışları, sosial-ictimai faktorlar xüsusi rol oynayır. Müasir dövrdə hərbi qulluqçular cəmiyyətin digər üzvləri kimi, informasiya basqısı ilə üzləşir, müxtəlif kənar ideoloji təsirlərə məruz qalırlar. Mənəvi-psixoloji hazırlığın əsas vəzifələrindən biri qeyd olunan kənar ideoloji təsirlərin önlənməsi və neytrallaşdırılmasıdır.

Buna necə nail olunmalıdır? Əlbəttə, ilk növbədə ardıcıl və məqsədyönlü şəkildə aparılan maarifləndirmə yolu ilə. Hərbi qulluqçulara kənar ideoloji təsirlərin mahiyyəti və hansı məqsədlər güddüyü dolğun izah olunmalıdır. Bu izahetmə ümumi tezislərə deyil, konkret arqumentlərə, həyatdan real nümunələrə əsaslansa, effektiv olar. Bunun üçün tərbiyə işi tədbirlərini məzmunlu keçirmək, konkret mövzular üzrə əhatəli müzakirələr aparmaq və hərbi kollektivdə fikir mübadiləsini düzgün vətəndaşlıq mövqeyi məcrasına yönəltmək vacibdir. Hərbi qulluqçu hərbi kollektivdə yetişir və formalaşır. Onun mənəvi keyfiyyətlərinə şərəfli hərbi ənənələrin, silahdaşları ilə səmimi və etibarlı yoldaşlıq münasibətlərinin, hərbi xidmət sınaqlarına iradi-psixoloji dayanıqlığının, vətənpərvərlik əqidəsinə bağlılığı və rəğbətinin, özünə ideal seçdiyi hansısa dövlət və hərbi xadimin, yaxud qəhrəmanın həyat yolu örnəyinin təsirləri böyükdür. Bu baxımdan hərbi qulluqçunun mənəvi keyfiyyətlərinin, dünyagörüşünün hansı zəmində formalaşması onun hərbi xidmət borcuna münasibətində özünü büruzə verir. Ona görə də mənəvi-psixoloji hazırlığın təməl mərhələsində atılan addımlar və sonrakı gedişinin düzgün istiqamətlənməsi profilaktik mahiyyət daşıyan məsələdir.

Kənar ideoloji təsirlər hərbi qulluqçuları dövlətçilik təfəkküründən uzaqlaşdırmağa, onlara dezinformasiya ötürmək və zərərli təbliğat aparmaqla çaşqınlıq, ruh düşkünlüyü yaratmağa, əqidə və həyat, peşə meyarlarına inamlarını sarsıtmağa yönəlib. Əlbəttə, yüksək mənəvi-psixoloji hazırlığı, müəyyən həyat və xidmət təcrübəsi, dürüst vətəndaş mövqeyi olan hərbi qulluqçular bu "tələ"yə düşmürlər. Çalışmaq lazımdır ki, məhz bu kimi hərbi qulluqçular hərbi xidmət sahəsinə aid ictimai təşkilatların üzvü olsunlar və tərbiyə işi prosesində fəal iştirak etsinlər.

Hərbi qulluqçuların milli-mənəvi dəyərlərimizi tərənnüm edən, dövlətçilik tariximizi göstərən, görkəmli şəxsiyyətlərimizin həyat və fəaliyyətini işıqlandıran ədəbiyyatları mütaliələrinə, sənədli və bədii filmlərə, teatr tamaşalarına baxmalarına, milli qürur hissi doğuran tarixi məkanlarımıza ekskursiyalara, ziyalılar, ictimai xadimlər, Silahlı Qüvvələr və müharibə veteranları, müxtəlif sahələrin mütəxəssisləri ilə görüşlərin keçirilməsinə xüsusi diqqət yetirilməlidir. Belə tədbirlər hərbi qulluqçularda vətənpərvərlik əqidəsinin formalaşmasına gərəkli töhfə verir.

Bu gün internet üzərindən müxtəlif ideoloji diversiyaların həyata keçirilməsinə cəhdlər göstərən məkrli qüvvələr var. Belə bir təhlükə internet təhlükəsizliyi məsələsini günümüzün aktual probleminə çevirir. Hərbi qulluqçuları internetdəki təhlükəli saytlar barədə xəbərdar etməklə yanaşı, onlara internetdə milli informasiya portalları və mütərəqqi virtual resurslar barədə məlumat vermək məqsədəuyğundur. Hərbi qulluqçuların elektron ünvanlarının, onlara məxsus akkaunt və veb səhifələrin necə qorunması, informasiya filtrlərindən istifadə xüsusiyyətləri barədə mütəxəssislərin iştirakı ilə aidiyyəti üzrə seminarların keçirilməsi faydalı addım olardı.

Şəxsi heyətə kənar ideoloji təsirlərin önlənməsi və neytrallaşdırılmasında hərbi mətbuatın rolu heç də az deyil. Hərbi mətbuat dövlətçilik, vətənpərvərlik, millətsevərlik əqidəsinin təbliğatçısı, xidməti-döyüş fəaliyyəti salnaməsinin güzgüsü, şərəfli ənənələrin daşıyıcısı və nəhayət, öz xüsusiyyətləri olan informasiya mənbəyi kimi, ideoloji iş baxımından vacib missiyanı yerinə yetirir. Hərbi mətbuatın məzmunu və tərtibatı əsas oxucuları olan hərbi qulluqçuların ideoloji baxışlarına nüfuz etməli, onların hərbi xidmətə mənəvi bağlılıq ruhunda formalaşmasını aşılayan yaradıcı üslub və dəstxətti əsas götürərək zənginləşdirməlidir. Qeyd edim ki, hərbi mətbuatın səhifələrində hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının təşkili üzrə qabaqcıl təcrübənin işıqlandırılması da vacib mövzu istiqamətlərindən biridir. Qabaqcıl təcrübənin öyrənilməsi mənəvi-psixoloji hazırlığın təkmilləşməsinə və zamanın çağırışlarına adekvat olaraq öz kəsərliliyini artırmasına yönəlik prosesdir.

Tərbiyəçi zabitlər tabeliklərindəki hərbi qulluqçuların ideoloji baxışlarına, mənəvi ovqatlarına, davranışlarının hərbi xidmət prinsipləri ilə nə dərəcədə uzlaşmasına heç vaxt laqeyd yanaşmamalıdırlar. Hərbi qulluqçuların kənar ideoloji təsirlərdən qorunması bu gün və gələcək üçün mənəvi-psixoloji hazırlıq prosesində yeni yanaşmaları da aktuallaşdıra bilər.

Mətbuat xidməti

UÇUŞLARIN İDARƏ OLUNMASINDA START KOMANDA MƏNTƏQƏSİ ÜZƏRİNƏ DÜŞƏN VƏZİFƏLƏRİ UĞURLA İCRA EDİR

"Qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə icra olunmasında Daxili Qoşunların Helikopter Eskadrilyasının rolu əvəzolunmazdır. Xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı şəxsi heyətin, eləcə də maddi vəsaitlərin əməliyyat yerinə vaxtında daşınması bunu deməyə əsas verir. Xüsusi həmlə, paraşüt-desant və xilasetmə qrupları ilə birgə fəaliyyətlər, havadan axtarış-xilasetmə işlərinin aparılması, şəxsi heyətin havadan dəstəklənməsi, yaralı və xəsarət alanların təxliyyəsi, o cümlədən zərurət olduqda respublikamızın müdafiəsində iştirak etmək Helikopter Eskadrilyasının vəzifələridir".

Bu fikirləri səsləndirən 17077 saylı hərbi hissənin komandiri polkovnik-leytenant Rövşən Cavadov bildirdi ki, sadalananlar Helikopter Eskadrilyasının ümumi funksional vəzifələridir. Bundan başqa, hərbi hissənin gündəlik xidməti-döyüş fəaliyyətinin əsaslarını təlim uçuşları təşkil edir. Hərbi hissə komandiri uçuşlar zamanı ən vacib məqamlardan birinin Start Komanda Məntəqəsinin fəaliyyətinin olduğunu vurğuladı.

Uçuşlar zamanı Start Komanda Məntəqəsində 3 qrup fəaliyyət göstərir. Uçuşlara rəhbərlik qrupu, Aviasiya-meteoroloji və Dispetçer xidmətləri. Uçuşlara rəhbərlik qrupunun rəisi mayor Rövşən Heybətov uçuşlarda iştirak edən bütün şəxsi heyətin rəisi hesab olunur. O, uçuşdan bir gün əvvəl tapşırıqlar alır. Uçuşların yerinə yetirilməsi üçün plan-cədvəlin tərtib olunmasında yaxından iştirak edir, uçuş heyətilə məşqlər keçirir. Sonra uçuş günü müvafiq aidiyyəti qurumlardan icazə və uçuş şərtləri alır. Ardınca uçuşların idarə edilməsinə başlanılır. Ekipaj borta oturur, mühərriklərin işə salınmasına icazə istəyir. Qrup rəhbəri təyin olunmuş vaxtda qalxışa icazə verir. Uçuş vaxtı pilotların uçuş tapşırıqlarını düzgün yerinə yetirməsini nəzarətdə saxlayır. Uçuş zamanı xüsusi hallar yarandıqda təlimata uyğun ekipaja köməklik göstərir.

Start Komanda Məntəqəsinin ikinci üzvü Aviasiya-meteoroloji xidmətində sinoptik-meteoroloq baş leytenant Bərzani Hümbətov meteoroloji və ornitoloji vəziyyətin təhlilini aparır, uçuş müddətində hava proqnozunu tərtib edir. Qalxma-enmə zolağında helikopterin enməsi üçün meteoroloji vəziyyəti dəqiqləşdirir. Qrupun digər üzvü - qərargahda baş dispetçer gizir Fərid Hüseynov isə uçuşların məhdudlaşdırılması, hava şəraitinin dəyişməsi barədə məruzə edir. Təyin olunmuş uçuş marşrutuna nəzarət edir, pozuntular zamanı dərhal aerodromun baş aviasiya rəisinə, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsinə, Hava Hərəkətini İdarəetmə Vahid Sisteminin Rayon Mərkəzinə məlumat verir.

Bir sözlə, uçuşların idarə olunmasını müvəffəqiyyətlə həyata keçirən Start Komanda Məntəqəsi üzərinə düşən vəzifələri uğurla yerinə yetirir.

baş leytenant T.Əlizadə

4_Layout 1 13.02.2018 18:24 Page 1

XÜSUSİ TƏYİNATLI MƏSLƏYİ...

Daxili Qoşunların tərkibində xüsusi təyinatlı dəstələrin yerinə yetirdiyi vəzifələrin öz xüsusiyyətləri var. Onların sıralarında xidmət edən hərbi qulluqçuları fərqləndirən əsas cəhətlərdən biri peşəkarlıqdır. Peşəkarlıq hərbçinin döyüş və mənəvi-psixoloji hazırlığının, döyüşçü məharəti və iradəsinin əsas sütununu təşkil edir. Bu xidməti keyfiyyətin daşıyıcısı olan 17074 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri mayor Vüsal Bayramovun bioqrafiyası maraqlı məqamlarla zəngindir.

O, 1984-cü ildə Tovuz rayonunun Qovlar qəsəbəsinin Şamlıq kəndində anadan olub. Hələ orta məktəb illərindən çətin və şərəfli hərbçi peşəsinə maraq göstərib. Vətəni qoruyarkən döyüş sınaqlarından ləyaqətlə keçmiş hərbi qulluqçuların hərbi xidmət yolunu özünə örnək bilib. 1999-cu ildə orta məktəbin 9-cu sinfini bitirdikdən sonra Türkiyənin İstanbul şəhərindəki Hərbi Liseyə qəbul olunub. Burada çalışqanlığı öz bəhrəsini verib. Belə ki, 2003-cü ildə Hərbi Liseyi xarici ölkə kursantları arasında 1-ci yeri tutaraq bitirib. Sonra hərbi təhsilini Ankaradakı Quru Qoşunları Ali Hərbi Məktəbində davam etdirib. Bu Ali Hərbi Məktəbin 2007-ci ildə xarici ölkə kursantları arasında 3-cü yer, azərbaycanlı kursantlar arasında 1-ci yer tutmaqla məzunu olub. 2008-ci ildə o, "leytenant" hərbi rütbəsində Ankaradakı Jandarm Subay Təmel kursunu xarici kursantlar arasında 2-ci yerə yiyələnməklə başa vurub. 2008-ci ilin sentyabr - 2009-cu ilin yanvar aylarında Foça Jandarm Komando Okulunda Komando kursunda iştirak edib. Qardaş Türkiyədə aldığı çoxpilləli hərbi təhsil onun hərbçi peşəsinə mənən daha sıx bağlanmasına təkan verib.

2009-cu ildən etibarən Daxili Qoşunların 17074 saylı hərbi hissəsində xidmət edir. Xüsusi təyinatlı dəstədə qrup komandiri vəzifəsindən xüsusi təyinatlı dəstənin komandiri vəzifəsinədək yüksəlib. 2014-2016-cı illərdə yenidən Türkiyə Respublikasına ezam olunaraq Quru Qoşunlarının Hərbi Akademiyasında hərbi təhsil alıb.

O, hər bir vəziyyətdə və şəraitdə xüsusi təyinatlılar məsləyinə sadiq olan hərbi qulluqçudur. Tabeliyində olan şəxsi heyəti də bu ruhda tərbiyə edir və yetişdirir.

Şərəfli döyüş yolu keçmiş Daxili Qoşunların sıralarında hərbi xidmətindən qürur duyan mayor Vüsal Bayramov komandanlığın etimadını əzmkarlığı, məsuliyyətli fəaliyyəti ilə doğruldur.

Mayor V.Bayramov 2014-cü ildə Respublika Prezidenti tərəfindən "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib. Onun xidmət bioqrafiyasında mükafatlar az olmayıb. 2013-cü ildə ona "kapitan" hərbi rütbəsi vaxtından əvvəl verilib. 2017-ci ildə Daxili Qoşunların Komandanı tərəfindən "Xidmətdə fərqləndiyinə görə" döş nişanına layiq görülüb.

Öz peşəkar vərdişlərini daim təkmilləşdirən, tabeliyindəki şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsinə səy göstərən mayor V.Bayramov müasir dünyagörüşünə malik, hərbi kollektivçilik ənənələrinə sadiq zabitdir. Onun sözlərinə görə, xüsusi təyinatlıların döyüş ruhu və döyüşçü məharəti daim yüksək səviyyədə olmalı, bu amil qarşıya qoyulan istənilən döyüş tapşırığının uğurlu icrasına zəmin yaratmalıdır. Xüsusi təyinatlı dəstənin şəxsi heyəti ilə keçirilən məşğələlər və praktiki təlimlər də bu məqsədə yönəlib.

Sıralarımızda öz məsləyinə inanan, əzmkarlıq göstərən, hərbçi nüfuzunu qoruyan, silahdaşlarına dəyər verən və müsbət keyfiyyətləri ilə örnək olan mayor V.Bayramov kimi zabitlərin olması qürur hissi doğurur.

Yalçın Abbasov

CƏSUR DÖYÜŞÇÜ-KEŞMƏKEŞLİ İLLƏR

67987 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri baş gizir Pərviz Süleymanovdur. O, 1973-cü il iyunun 25-də İsmayıllı rayonunun Quşencə kəndində doğulub. Orta məktəbi 1991-ci ildə böyüyüb boya-başa çatdığı doğma kəndində bitirən Pərvizin gəncliyi respublikamızın ən ağır vaxtlarına düşür. Vətənin çətin günlərində müddətli həqiqi hərbi xidmətə çağırılan Pərviz Daxili Qoşunların 5478 (16075) saylı hərbi hissəsində xidmətə başlayır. Doğma torpaqlarımıza göz dikən mənfur erməni daşnaklarının törətdiyi vəhşiliklərə dözməyərək, öz arzusu ilə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi döyüş bölgəsinə yollanır. Onun döyüş yolu Ağdamın Papravənd kəndindən başlayıb.

Azərbaycanın Milli Qəhrəmanı baş leytenant Fəxrəddin Nəcəfovun komandiri olduğu bölüyün tərkibində Ağdamın Qalayçılar, Papravənd kəndləri, eləcə də bir sıra yüksəkliklər uğrunda gedən ağır döyüş əməliyyatlarında yaxından iştirak edərək, onlarla erməni yaraqlısını məhv edib. Həmin günləri ürək ağrısı ilə xatırlayan hərbi qulluqçumuz baş leytenant F.Nəcəfov kimi cəsur, qeyrətli oğullarla fəxr etdiyini dedi. Taqım komandiri kimi bütün şəxsi heyətə əsl nümunə olmuş şəhid zabitin xatirəsini hər zaman əziz tutduğunu dilə gətirdi. Ən qızğın döyüşlər zamanı neçə-neçə Azərbaycan oğullarının mərdliklə torpaqlarımızı müdafiə etdiyinin, son damla qanlarınadək düşmənlə mübarizə apardıqlarının canlı şahidi olması bu gün ona gənc hərbçilərin tərbiyəsində, onların əsl vətənpərvər kimi yetişdirilməsində köməkdir.

Artıq 27 ildir ki, həqiqi hərbi xidmətdə olan baş gizir P.Süleymanov 1995-ci ilin yanvarından 67987 saylı hərbi hissədə xidmət edir. Hər zaman biliklərini təkmilləşdirdiyini, hərbi xidmətin çətinliklərinə qarşı dözümlülük nümayiş etdirdiyini fəxrlə bildirir.

Hazırda təminat taborunun xüsusi vasitələrin tətbiqi bölmələrinin təminatı bölüyünün baş çavuşudur. Nümunəvi xidmətinə görə dəfələrlə hərbi hissə komandanlığı tərəfindən müxtəlif mükafatlara layiq görülüb. Hərbi qulluqçuda döyüş ruhunun yüksək olmasını hər şeydən üstün tutan baş gizir P.Süleymanov torpaqlarımızın yağı düşmənin əsarətindən qurtulacağı günü səbirsizliklə gözləyir.

leytenant N.Ağayeva

YÜKSƏK DÖYÜŞ RUHU, TƏLƏBKARLIQ, GÖZLƏNİLƏN NƏTİCƏ...

67987 saylı hərbi hissənin xidməti nailiyyətləri, əzmkarlığı ilə fərqlənən, 2017-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına görə qabaqcıl bölməsi xüsusi vasitələrin tətbiqi dəstəsidir. Artıq uzun zamandır ki, hərbi hissə komandanlığının etimadını doğrultmaq üçün davamlı olaraq öz üzərində çalışan şəxsi heyət, nəhayət, hissə üzrə liderliyi qazanmağı bacarıb.

Dəstə komandiri vəzifəsini icra edən kapitan Şamxal Babayev xidmətini Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq Direktivinin tələblərinə əsasən təşkil etdiyini bildirdi. Dəstədə yüksək nizam-intizamın əldə olunması üçün şəxsi heyətə qarşı tələbkar olmağın, gündəlik xidməti-döyüş fəaliyyətinin nəzarətdə saxlanılmasının vacibliyini vurğuladı. Keçirilən praktiki və nəzəri məşğələlərin keyfiyyətli və tam fərdi qaydada mənimsənilməsinin müsbət nailiyyətlərin, qabaqcıl təcrübənin əldə olunmasına təkan verdiyini də sözlərinə əlavə etdi. Belə ki, gündəlik olaraq şəxsi heyətin tam tərkibdə olmasının yoxlanılması, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, məşğələlərin vaxtında keçirilməsi, hərbi qulluqçuların məşğələyə uyğun ekipirovkası və silahlanması təmin olunur. Kiçik komandir heyətilə məşğələlərə xüsusi diqqət yetirilir. Onların şəxsi heyətlə iş metodu və üsulları müəyyənləşdirilir, müvafiq tapşırıqlar verilir. Şəxsi heyətin nəzəri biliklərini və praktiki fəaliyyətini şəxsən yoxlayan nümunəvi kiçik komandir daxili qayda-qanuna ciddi riayət olunmasını təmin edir.

Hərbi qulluqçuların döyüş və ictimai-siyasi hazırlığına, təlim-tərbiyəsinə, hərbi intizamına, qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə, xüsusi vasitə və silahların, texnikanın vəziyyətinə daim nəzarət etdiyini diqqətə çatdıran kapitan Ş.Babayev söhbət əsnasında xidmətin düzgün təşkilinin kompleks iş olduğunu söylədi, bu sahədə ona yaxından köməklik göstərən bölük komandirlərinin adlarını çəkməyi unutmadı. Ələlxüsus, xüsusi vasitələrin tətbiqi bölüyünün ötən il ərzində uğurlu xidmətini diqqətə çatdırdı. Bölük komandiri baş leytenant Emin Məmmədovun hərbi qulluqçuların fərdi qaydada peşəkarlığının artırılması istiqamətində mütəmadi işlər apardığını vurğuladı. Görülən işlərin nəticəsidir ki, ötən il keçirilən ümumi inspeksiya yoxlamasında dəstə hərbi hissə üzrə birinci yerə layiq görülüb.

Bakıda keçirilmiş beynəlxalq əhəmiyyətli tədbirlərdə qoşunlarımızı layiqincə təmsil edən hərbçilərimiz əminik ki, bundan sonra da qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gələcəkdir.

Şəxsi heyət arasında sağlam mənəvi-psixoloji durumun formalaşması və dostluq münasibətlərinin düzgün istiqamətdə inkişafı, eləcə də yeni gəlmiş hərbi qulluqçuların kollektivə uyğunlaşması önəm verilən

əsas məsələlərdən biridir. Bu istiqamətdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini vəzifəsini icra edən baş leytenant Cavid Nuriyevin fəaliyyəti müsbət xarakterizə edilir. Hərbi qulluqçuların fərdi, mənəvi keyfiyyətlərinin dərindən öyrənilməsinin vacibliyini vurğulayan hərbçimiz öz işinin öhdəsindən bacarıqla gəlir. O, fərdi keyfiyyətlərin müəyyən edilməsində həssas məqamların olduğunu söylədi: "Hər bir insanı fərdi qaydada tanımaqla onun xidmətə münasibətini, eləcə də hazırlığını müəyyənləşdirmək mümkündür. Tələbkarlıqla yanaşı, hərbi qulluqçulara diqqət və qayğının artırılması gözlədiyimiz nəticənin əldə olunmasına təkan verir. Ümumilikdə götürsək, dəstədə xidmət edən bütün komandir heyətinin öz işini düzgün istiqamətdə qurması əldə olunmuş müsbət nəticə kimi qiymətləndirilməlidir".

Zabitlərin fikirlərindən də aydın görünür ki, bu gün hərbi hissənin öncülləri sırasında olan xüsusi vasitələrin tətbiqi dəstəsi bu adı daima qoruyub saxlamağı hədəfə alıb.

leytenant N.Ağayeva

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ ALİ HƏRBİ MƏKTƏBİNƏ 2018/2019-cu TƏDRİS İLİ ÜÇÜN TƏLƏBƏ QƏBULU QAYDALARI

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış sinfində oxuyan və ya tam orta təhsilli, qəbul edildiyi ildə 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları (yalnız oğlanlar) sırasından seçilirlər.

Namizədlər Daxili Qoşunların Baş İdarəsində yaradılmış fiziki hazırlıq, hərbi-həkim və mandat komissiyalarında Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma - 6 dəfə, qaçış - 100 metr məsafəyə 15 saniyə, 1000 metr məsafəyə 4 dəqiqə, qolların üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi - 18 dəfə, gövdənin döşəmədən qaldırılıb-endirilməsi - 18 dəfə).

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanlarında iştirak etmək üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasına göndərilir.

İmtahanlar test üsulu ilə IV ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası tərəfindən müəyyən edilir. Namizədlər bu məqsədlə Komissiyanın internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul olunmuş şəxslər dövlət hesabına geyim forması, yataqxana və yeməklə təmin edilirlər. Məktəbdə tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 4 ildir.

Məktəbi müvəffəqiyyətlə bitirmiş məzunlara müvafiq hərbi ixtisaslarla bərabər "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" ixtisası və "leytenant" hərbi rütbəsi verilərək, onlar Daxili Qoşunlarda müvafiq vəzifələrə təyin edilirlər. İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan, 2018-ci ilin aprel və iyul çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də Daxili Qoşunlarda xidmətə qəbul üçün müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən şəxslər Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul edilmir.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul üçün namizədlər Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Baş İdarəsinə aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər (ünvan: Bakı şəhəri, Binəqədi rayonu, Q.Musabəyov küçəsi 4):

– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);

– təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında arayış və ya tam orta təhsil haqqında sənəd (attestatın əsli və notarial qaydada təsdiq olunmuş surəti);

– yaşayış yeri üzrə tibb müəssisəsindən sağlamlıq haqqında arayış;

– ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);

– oxuduğu təhsil müəssisəsi tərəfindən verilmiş xasiyyətnamə;

– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Məktəbə namizədlərin ərizə və sənədlərinin qəbulu 2018-ci il mart ayının 1-dən aprel ayının 10-dək (bazar və bayram günləri istisna olmaqla) hər gün saat 10:00-dan 17:00-dək həyata keçiriləcəkdir.

Məlumat üçün əlaqə telefonları:

(012)-590-65-07,

(012)-560-27-00.

Allah rəhmət eləsin

Daxili Qoşunlar Komandanlığı polkovnik-leytenant İlham Abıyevə **həyat yoldaşının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin komandanlığı mayor Tural Abdulkərimova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin komandanlığı baş leytenant Teymur Əliyevə və gizir Seymur Əliyevə **atalarının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16076 saylı hərbi hissənin komandanlığı baş leytenant Azər Mamhudova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17074 saylı hərbi hissənin komandanlığı çavuş İxtiyar Qasımova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000